**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 13 (2047) 18 fevral 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Lələ təxəllüslü el şairi kimdir?

(əvvəli ötən sayımızda)

**Məlumdur ki, bu gün xalq bayatıları adlandırdığımız bu bitkin şer nümunələrini (eləcə də digər folklor örnəklərini) ayrı-ayrı şəxslər yaratmışlar. Tarixin bütün dövrlərində insanlar həmişə ülvi arzularla yaşamış, xoş günlərində tərənnümlər, vəsflərlə ötmüş, ələmli günlərində isə giley, narazılıq, şikayət dolu şerlər qoşmuşlar. Ayrı-ayrı yaradıcı şəxslərin hiss və həyəcanlarının ifadəsi kimi yaranan bayatılar sonradan zamandan-zamana, nəsildən-nəslə keçə-keçə, cilalana-cilalana xalqın arzu və istəyinə uyğun olaraq dəyişdirilmiş, əlavə və əskiltmələrə məruz qalmış və ümumxalq sərvətinə çevrilmişdir. Bu tip janrlarda müəllifin varislik hüququ qorunub saxlanmamışdır.**

Cavad Heyət yazır ki, bayatılar əvvəlcə birisi tərəfindən söylənmişsə də, sonradan xalq dilinə keçərək, dildən-dilə, eldən-elə keçmiş və zamanla müəlliflər unudularaq xalqın malı olmuşdur. Görkəmli alimlər İ.Babayev və P.Əfəndiyev də bu qənaətdədirlər ki, hər bir bayatını söyləyən əvvəlcə bir sənətkar, fərd olmuşdur. Sonra bu əsər xalqın dilinə keçərək cilalanmağa başlanmışdır. Belə bayatıların müəllifləri sonradan unudulmuş və indi də bizə məlum deyildir. Tanınmış alim M.Seyidov 1721-ci ildə erməni əsilli E.Muşeqdən müsadirə olunaraq götürülən "Nəğmələr" kitabındakı Azərbaycan bayatılarından bəhs edərək yazır ki, burada verilən nümunələrdə orta əsr şairlərindən "Baba", "Lələ" adları ilə başlayan bayatılar bu müəlliflərin əsərləridir. Professor İ.Abbaslı isə son tədqiqatların və axtarışların nəticəsi kimi Azərbaycan bayatı janrının mahir ustadı olan Lələnin özünəməxsus yeri və mövqeyini qeyd edərək yazır: "Ozan-aşıq sənəti tarixində Lələ az tanınan, həyatı, şəxsiyyəti və poetik irsi ətrafında əsaslı bilgi qorunmayan sənətkarlardandır. Buna baxmayaraq onun bayatılar qoşması, xüsusilə cinaslı bayatıların əvəzsiz yaradıcısı olması əksər folklorşünaslar tərəfindən xatırlanmış, adı isə Əmani, Əzizi, Məzlum, Hüseyni, Mədədi, Saleh, Bikəs, Məhzun, Müştaq, Məhəmməd bəy Aşiq, Aşıq Pəri, Zabit və özgə aşıq-şairlərlə bir cərgədə çəkilmişdir". Son tədqiqatlar göstərir ki, Lələ XVİ-XVİİ əsrlərdə yaşayıb-yaratmım el şairidir. Bu dövrün mütərəqqi xüsusiyyətləri onun dördlüklərində öz əksini tapmışdır. O, həlalik yeganə şairdir ki, yalnız bayatı üstündə köklənmiş, bu janrı yaradıcılığının əsası hesab etmişdir. Toplanan bayatılarından bir daha görünür ki, Lələ çox qüdrətli bayatı şairi olmuşdur. Hətta bir çox tədqiqatçılar onu lirik janrın bayatı formasında şerlər qoşan ilk sənətkarlardan biri hesab edirlər. İlk müəllifli bayatı şairi kimi səciyyələndirilən Lələnin bayatıları dərin poetikası, təbii cinasları, fəlsəfi məna tutumu ilə seçilir:

**Lələ el ağsaqqalı,**
**Darar tel, ağ saqqalı.**
**Zülüm çox ömür sürsə**
**Şahım, el axasq qalı.**
**Yaxud:**
**Lələnin hər ayından,**
**El yatmaz harayından.**
**Gündə bir kərpic düşür**
**Ömrümün sarayından.**
**Və yaxud:**
**Lələ, inci, dürr burdan,**
**Min atını sür burdan.**
**Getdin yerini tanı**
**Deməsinlər dur burdan.**



(Növbəti yazılarımızın birində Lələ bayatılarının xüsusiyyətlərindən geniş söhbət açacağıq. F.Ş.)

Lələ özündən sonra zəngin bir irs, tükənməz söz yatırı qoyub getmişdir. Xalq arasında dolaşan Lələ məsəlləri, Lələ aforizmləri bu qüdrətli el şairinin müdrikliyindən xəbər verir. El-oba əhli indi də müəyyən məqamlarda onun məsəllərindən, deyimlərindən istifadə edirlər.

Məsələn, tək, kimsəsiz adamlara "Bircə Lələ canıdır", "Lələ kimi təkdi, kimi var"-deyirlər. Özünü yersiz öyən adama "Lələ ləl ola bilər, ləl Lələ olmaz", çoxbilmiş adama "Lələ kimi bayatı çağırır"-deyirlər. Sahibi ölmüş, baxımsız qalmış evlə münasibətdə deyirlər6 "Lələ çardağı kimi qarala qalıb".

Bir işə ümidsiz yanaşanda "Ya Lələ şələni, ya da şələ Lələni"-deyirlər. Ev-eşiyini qoyub gedən didərgin evi barədə: "Lələ köçüb yurdu qalıb", "Lələ köçüb yurdu ağlar", "Lələ köçüb yurd ağlar, dönüb-dönüb bir də ağlar"-deyirlər. Hamının bildiyi, yayılmış xəbəri təkrar edənlərə xatırladırlar: "Sən deyən Lələ bayatısıdır". Yarıtmaz adamlar haqqında : "Yaxşı tikdin Lələnin yay damını", bir işi görüb sonradan peşiman olan adamlara rəğmən: "Günahkar oldu Lələ, saqqalı verdi ələ"- deyirlər. Birisini ağır işə buyuranda həmin adam gileylənib deyir: "Lələ kimi daşdan ha yaranmamışam". Ac-yalavac adama "Lələvun", isti havada çox gəzən yorğun-arğın adama "Lələdağ", isti havada susuzluqdan dili-dodağı təpiyən adama "Lələbüryan" -deyirlər. Təsadüfi deyil ki, respublikamızın əksər bölgələrində ataya, özündən böyüklərə hörmət əlaməti olaraq "Lələ" deyə müraciət olunur.

Lələ özündən sonra zəngin irs qoyduğu kimi (təəssüflər olsun ki, vaxtında toplanmadığından Lələ bayatılarının əksəriyyəti zaman keçdikcə ağızdan-ağıza keçməklə dəyişdirilmiş və xalq bayatılarına qarışaraq müəllifini unutdurmuşdur) xeyli toponim də yadigar qoyub getmişdir. Güney Azərbaycandan tutmuş Qərbi Azərbaysana, Gürcüstana qədər ərazilərdə Lələ ifadəli yer-yurd adlarına rast gəlmək mümkündür.

Ərdəbilin Ərşaq mahalında Lələ kəndi, Gürcüstanın Bolnisi rayonunda Lələpaşa kəndi, Astarada Lələkəpeştə, Lerikdə Lələdulan, Lələkəran kəndləri, Zərdabda Lələağacı kəndi, Qaxda Lələli obası, Laçında Lələ abidəsi yer adı, Qazıdərə kəndində Lələbağırlı oymağı, Füzuli rayonunun Horadiz kəndi ərazisində Lələ düzü, həmin rayonun Yağlıvənd kəndində Lələli məhəlləsi, Böyük Bəhmənli kəndində Lələli oymağı, Əhmədallar kəndində Lələ qəbri (buna Aşıq qəbri də deyirlər), Füsuli rayonu ilə Cəbrayıl rayonunun arasında Cocuq Mərcanlı kəndinin üst tərəfində Lələtəpə (buna Lələ dağı, yaxud Lələ yaylağı da deyirlər), Qərbi Azərbaycanda Lələkənd (ermənilər bu adı tərcümə edərək Ləlləguğ adlandırmışlar) və s. Lələnin adı ilə pasportlaşan coğrafi məkanlardır. İraq-Türman ellərində də Lələ ifadəli alqışlar-qarğışlar, bilmecələr olduğu kimi, toponimlər də mövcuddur.

Araşdırmalardan göprünür ki, Lələnin bəxti-taleyi o qədər də yaxşı gətirməmiş, ömrünün müəyyən dövrünü sıxıntılarla keçirmişdir. Ümumiyyətlə, tarixin keşməkeşli günlərini vərəqlədikcə görürük ki, hər bir sənətkarın müəyyən bir faciəsi olmuşdur. El şairi Lələnin faciəsi isə ikitərəflidir. Birincisi, Lələ bir çox sənətkarlar kimi vətənindən didərgin düşmüş, həyatının bir hissəsini aclıq və yoxsulluq içərisində keçirmişdir. Bu da zəmanənin sənətkara "töhfəsidir".

İkincisi isə, az sənətkar tapılar ki, nə doğum tarixi bilinə, nə ölüm. Nə zaman, harada dünyaya gəldiyi sirli qalsa da, adı hafizələrdən silinməyə, qatar-qatar bayatıları qədirşünas ürəklərdə qərar tuta, şirin-şirin deyimləri əsrlərin əriş-arğac yollarını dizinə dolaya-dolaya, gözünə könlünə yığa-yığa günümüzəcən qədir-qiymətini itirməyə, dürlü-dürlü məsəlləri söhbətlərin dadını-duzunu artıra, sanballı aforizmləri neçə-neçə ocaq başında xatırlana. Az sənətkar tapılar ki, özü real şəxsiyyət ola-ola həyatı əfsanələrlə çulğaşa, fəaliyyəti əsatir tülünə bürünə.

Nəhayət, az sənətkar tapılar ki, könül əmanətləri ürəklərdə qərar tutsa da, dillərdə əzbər olsa da, özünün həqiqi adı bilinməyə...

**Bu başıbəlalı, dərvişmisal sənətkar adı dillər əzbəri olan, el arasında "haqq aşığı" kimi tanınan Lələdir.**



**Faiq ŞÜKÜRBƏYLİ, filologiya üzrə fəlsəfə doktoru**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR